F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Havalansın Xanın səsi, Qarabağın şikəstəsi

Qarabağ xanəndəlik məktəbinin görkəmli nümayəndəsi Xan Şuşinskinin 125 illiyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait

**Bakı – 2026**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Havalansın Xanın səsi, Qarabağın şikəstəsi -** Qarabağ xanəndəlik məktəbinin görkəmli nümayəndəsi Xan Şuşinskinin 125 illiyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait / F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2026. – 19 s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

## Bölmə I
## Həyat və yaradıcılığı

Ömrünü xalq musiqisinin təbliğinə həsr edənləri xalq heç vaxt yaddan çıxarmır, unutmur. İllər ötdükcə bu qəbildən olan insanların xatirəsi daha böyük hörmət və ehtiramla yad olunur. Azərbaycan muğam sənətinin, klassik musiqi nümunələrinin gözəl bilicisi, orijinal, özünəməxsus ifa tərzi ilə seçilən, milli musiqi xəzinəmizin zənginləşməsində misilsiz xidmətləri olan Xan Şuşinski də belə sənətkardandır. Bu gün Azərbaycan muğam sənətinin "Xan"ı adlandırılan İsfəndiyar Aslan oğlu Cavanşirin anadan olmasından 125 il ötür.

**Könlüm keçir Qarabağdan,**
**Gah bu dağdan, gah o dağdan.**
**Axşam üstü qoy uzaqdan,**
**Havalansın Xanın səsi,**
**Qarabağın şikəstəsi...**

İsfəndiyar Aslan oğlu Cavanşir, 1901-ci il avqust ayının 20-də Şuşa şəhərində, Qarabağ xanlığının banisi Pənahəli Xanın nəvəsi Məhəmməd bəy Cavanşirin nəticəsi Aslan ağa Cavanşirin ailəsində ilk övlad kimi dünyaya gəlmişdir.

Anası Bəyimxanım da Cavanşirlər sülaləsinin bir qolu olan Behbud bəyin nəslindən olmuşdur.

Atası Aslan ağanın Şuşada evi olmaqla yanaşı Xanbağı yaxlınlığında Ballıca kəndində böyük mülkü, qoyun sürüləri, at ilxısı, geniş otlaqları, un dəyirmanı və meyvə bağları olmuşdur. Aslan ağa təsərrüfat işlərinə rəhbərliklə yanaşı ov - ovlamağı və hərdən peşəkar səviyyədə olmasa da tarda çalıb, züm - zümə eləməyi xoşlayarmış.

Ermənilərin 1905 -1907 ci illərdə, eləcə də 1918-ci ildə Qarabağda törətdikləri iğtişaşlar zamanı Aslan ağanın Şuşadakı evi və Ballıcadakı mülkü dəfələrlə yandırılmış və təsərrüfatı talan edilmişdir. Bu səbəbdən də sonradan müflisləşmiş Aslan ağa ailəsi ilə birlikdə Ağdama köçmək məcburiyyətində qalmışdır. Aslan ağanın ailəsində İsfəndiyardan sonra Əliyar adlı övlad dünyaya gəlmiş və kiçik yaşlarında tələf olmuşdur.

Sonradan Allahyar adlı oğlu və Rüxsarə adlı qızı olmuşdur. İsfəndiyarın anası Bəyimxanım erkən rəhmətə getdiyindən, uşaqlar xalaları – Zümrüd və Sədətbəyimin qayğısı ilə böyümüşlər. İsfəndiyarın təlim – təbiyəsinə, təhsilinə əmiləri Baxış ağa, Azad ağa, Rəhim ağa və dayıları Əbülhəsən bəy, Yusif bəy də yaxından diqqət göstərmişlər. İsfəndiyar Şuşadakı "Realnı"məktəbində təhsil alaraq - yazmaq, oxumağı və təbiət elmlərini öyrənmiş, fars və rus dillərindən müəyyən anlayışa malik olmuşdur. Ədəbiyyata, o cümlədən poeziyaya meyli olduğundan mütaliyə edər, şeir oxumağı xoşlarmış. Əsasən də Füzuli poeziyasına marağı daha geniş olmuş və Füzulinin şeirlərini təhlil edərək, dərindən dərk etməyə çalışarmış.

İsfəndiyarın atası və əmiləri mütərəqqi fikirli insanlar olduğundan tez – tez evlərində ədəbi – musiqili məclislər təşkil edər və bu tədbirlərə Qarabağın say – seçmə ziyalıları - muğam, poeziya aşiqləri toplaşarmış. Qrammofon səslənər, şeir

oxunar ara – sıra tanınmış xanəndələr dəvət olunub, muğam dəstgahı ifa edərmişlər. Bu mühitdə böyüyən İsfəndiyarda kiçik yaşlarından musiqiyə böyük maraq yaranmışdır. Çox keçmədən onun bu marağı diqqət çəkmiş və atası ona tar alaraq məşğul olmasını tövsiyə etmişdir. Bir müddət tar çalmağı öyrənən İsfəndiyar, sonradan bu sənəti qardaşı Allahyara öyrətmiş və Allahyar bu sənəti davam etdirməklə, gələcəkdə Azərbaycanın məşhur tarzənlərindən biri kimi püxtələşərək, uzun illər qardaşı ilə çiyin – çiyinə fəaliyyət göstərmişdir.

İsfəndiyarda geniş diapazonlu, məlahətli səsin və xanəndəliyə həvəsin olması çox erkən nəzərə çarpdığından, Aslan ağa oğlunu yeniyetmə çağlarından dövrünün tanınmış xanəndələrindən olan İslam Abdullayevin ( Segah İslamın ) şagirdliyinə vermişdir. İsfəndiyar ustadından xanəndəlik sənətinin incəliklərini, muğam və təsnifləri, eləcə də bir sıra el havalarını öyrənə - öyrənə Segah İslamın dəvət aldığı musiqi məclislərində iştirak edər, müəlliminin izni ilə öyrəndiyi muğamlardan oxuyaraq, tədricən tanınmağa başlamışdır. Artıq o, öz ustadı ilə yanaşı 19-cu ,20-ci əsrlərin görkəmli muğam ifaçıları - Cabbar Qaryağdı, Seyid Şuşinski, Keçəçioğlu Məhəmməd, Şəkili Ələsgər, Məşədi Hüsü, Zabul Qasım, Məşədi Məmməd Fərzəliyev və digər ustadların ifasını dinləyir, onlardan muğamatın ən mürəkkəb şöbə və guşələrini öyrənib, hafizəsinə həkk etməyə və ifasını zənginləşdirməyə müvəffəq olmuşdur.

1918-ci ilin yazında Ağdamın Novruzlu kəndində, Qarabağın o dövr üçün mütərəqqi fikirli ziyalılarının, şair və nasirlərinin və eləcə də məşhur sənət adamlarının dəvət aldığı mötəbər bir məclis qurulur. Həmin məclisə Segah İslam gənc şagirdi İsfəndiyarla birlikdə gəlir. Məclisdə elm - ədəbiyyat sahəsində yeniliklərdən söz açılıb, xanəndələrin ifasında muğam dəstgahları dinlənildikdən sonra İslam Abdullayev pəncərənin önündə o dövr üçün yenilik sayılan qrammofon cihazını görüb, məclis sahibindən evdə hansı xanəndələrin qrammofon vallarının olduğu ilə maraqlanır. O isə Cabbarın "Mahur"u, Seyidin "Çahargah", Malıbəyli Həmidin "Rast"ı və bir də iranlı Xanın- Əbülhəsən Xan İqbal Azər Soltanın "Kürdü Şahnaz"ının olduğunu bildirir. Məclis əhli xanəndələrin dincəldiyi müddətdə Əbülhəsən Xanın valına qulaq asmağa maraq göstərirlər. Ev sahibi valı səsləndirir.

Çox keçmədən evi İranlı Xanın məlahətli, bir qədər də fərqli ifası bürüyür. Şagirdinin vala çox həyəcanla qulaq asdığı və ara – sıra oxunanları sakitcə züm – zümə etdiyi Segah İslamın nəzərindən yayınmır. İfa başa çatdıqdan sonra ustad xanəndə məclisdəkilərə şagirdini təqdim edərək, onun da gözəl səsə və ifaçılq qabiliyyətinə malik olduğunu söyləyib, üzünü gənc sagirdinə tutaraq - İsfəndiyar, sən də belə oxuya bilərsənmi, deyə müraciət edir. İsfəndiyar-vala bir də qulaq assam oxuyaram, deyə ürəkli cavab verir. Məclisdəkiləri maraq bürüyür və val bir də səsləndirildikdən sonra gənc xanəndə üzünü tarzənə tutaraq, "başla"işarəsi verir. Tarın, kamanın xoş sədaları altında "Kürdü Şahnaz"muğamı səslənir. İsfəndiyar peşəkar xanəndə tərzində, eynilə Əbülhəsən Xanın oxuduğu kimi "Şahnaz"ı ifa etməyə başlayır.

Səsin gücündən divarboyu rəflərdə düzülmüş çini və şüşə qablar xanəndənin səsinə sanki səs verirmiş kimi çingildəyir, ara - sıra məclis iştirakçılarından razılıq sədaları səslənir. İsfəndiyar ifasını başa vurub, qavalı dizinin üstünə qoyur. Bu zaman

məclisi alqış sədaları bürüyür. Heyrətə gəlmiş qonaqlardan - maşalla bu ki, əsl xanəndədir, Gördün, Əbülhəsən Xanın oxumasından heç seçilmədi. Yox əşşi, bu Xandan da yaxşı oxudu. Bu uşağın böyük gələcəyi var. Əsl Xan elə budur ki... Bu tərifləri ustad sənətkarlarla yanaşı İsfəndiyarın müəllimi Segah İslam da müşahidə edir və artıq müstəqil məclis idarə edəcək qədər püxtələşmiş şagirdinin ilk sərbəst addımlar üçün ciddi uğur qazandığına ürəkdən sevinirdi.

Məclisdəki qonaqlardan kim isə gəncin adını bir də soruşanda Segah İslam məclisdəkilərə üzünü tutub-hörmətli ağalar, xanəndə və sazəndələr bildiyiniz kimi, xanəndə Əbülhəsən xalq içindən çıxmış sadə bir rəiyyət nümayəndəsi olmuşdur. İran Şahı onun sənətini yüksək qiymətləndirib, ona Xan titulu, böyük mülk, var-dövlət hədiyyə edərək onu İran xanəndələrinin Xan-Əbülhəsən Xan İqbal adlandırmışdır. (Həqiqətən İran hökmdarı Əhməd Şah bu xanəndənin səsinə o qədər vurulur ki, ona böyük mülk, torpaq sahələri bəxş etməklə yanaşı, Xan titulu verərək, Təbriz şəhərinin valisi təyin etmişdir. Əbülhəsən Xan İqbal Azər Soltan elə bir nadir şəxslərdən idi ki, istədiyi vaxt dəvətsiz Şah sarayına daxil ola bilərmiş.

Bu gün bu gənc oğlan Əbülhəsən Xanın ifasını olduğu kimi təkrarlaya bildiyi üçün qoy bu gündən o da olsun bizim Xan-Azəbaycan xanəndələrinin xanı, Xan Şuşinski. Hamı ustadın bu təklifini razılıq və sevinclə qəbul edir. Sonra Xan məclisdəkilərin xahişi ilə daha bir-neçə təsnif və muğam ifa edir. Həmin gündən sonra hamı Qarabağda yeni, Xan adlı çox istedadlı bir xanəndənin yarandığından danışaraq, onu tezliklə görüb və səsini dinləməyə tələsirdi. O dövrdən etibarən Xan Şuşinski musiqiçilərdən ibarət dəstə yaradaraq müstəqil el şənliklərində iştirak etməyə başlayır.

Azərbaycanda Demokratik Respublika elan edildikdən sonra, 1919-cu ildə Xan Şuşinski hərbi xidmətə cəlb edilərək, qısa bir müddətdə Gəncədə hərbi təlim keçir. Sonradan onu tanıyan hərbçi məmur, onun öz sənəti ilə yenicə yaranmış müstəqil respublikaya daha çox xeyir verə biləcəyini əsas gətirərək, Xan Şuşinskini hərbi xidmətdən azad edir.

Xan Şuşinski bir müddət Gəncədə və ətraf bölgələrdə kütlələr qarşısında və rəsmi tədbirlərdə çıxışlar etdikdən sonra qızıl ordunun Gəncəni zəbt etməsi və 1920-ci ilin mayında sovet hakimiyyətinə qarşı baş vermiş Gəncə qiyamından sonra yenidən Qarabağa qayıdaraq, Ağdam şəhərində məskunlaşmış, el şənliklərində, toy-düyünlərdə iştirak edərək yaradıcılığını davam etdirmişdir.

Xan Şuşinski müstəqillik dönəmində, eləcə də sovet hakimiyyətinin ilk illərində dəfələrlə millətçi - erməni quldur dəstələrinin qəfil hücumlarına məruz qalmış, yeri gələndə sərrast atıcılıq qabiliyyəti və ehtiyatlı davranışı hesabına düşmən gülləsindən qurtulmuş, ən qəddar qaçaq - yolkəsənləri belə səsinin, sənətinin sehri ilə ram edərək, özünün və yoldaşlarının həyatını xilas etmişdir.

Xan Şuşinski 1939-cu ildə respublika rəhbəri olmuş M.C. Bağırovun sərəncamı ilə 24 saat müddətində Ağdamdan Bakı şəhərinə köçürülmüşdür.

Bakı şəhərinə köçdükdən sonra Xan Şuşinski doğma el-obası ilə əlaqəni pozmamış, vaxtaşırı Ağdamdakı evinə baş çəkməklə yanaşı, yay istirahətini bir qayda olaraq Qarabağın səfalı yaylaqlarında keçirmişdir. 1960-cı ildən isə Şuşa şəhərinin

"Çöl qala"məhəlləsində həyət evi alaraq, sonrakı illərdə mütəmadi olaraq məzuniyyətə daim Şuşaya gəlmişdir.

Gənc yaşlarında evlənsə də bu evlilikdən övladı olmamışdır. Həyat yoldaşının təkidi ilə o, sonradan yenidən evlənmiş və həmin evlilikdən 4 övladı-1958-ci ildə qızı Bəyimxanım, 1960-cı ildə qızı Zümrüd, 1962-ci ildə oğlu Aslan və 1964-cü ildə qızı Səadət dünyaya gəlmişdir.

Xan Şuşinski 1979-cu ilin 18 mart tarixində uzun sürən xəstəlikdən sonra vəfat edib, Bakı şəhərindəki II Fəxri Xiyabanda dəfn edilmişdir.

## Bölmə II
## Yubeley tədbirlərinin keçirilməsi

1907-ci ildə Qarabağın mirvarisi olan füsunkar Şuşada, adlı-sanlı Cavanşirlər nəslindən olan Aslan ağanın təmtəraqlı sarayında bir oğlan uşağı dünyaya göz açdı. Uşağa İsfəndiyar adı verildi.

Çal-çağır əhli barədə düz deyiblər ki, hər yerdən seç gətir, Qarabağdan tut gətir!

Yəqin ki, təbiətin belə dilbər guşəsində, cənnət məkanında ətə-qana dolduqları üçün uşaqlıqdan qarabağlılarda incəsənətin bu növünə vurğunluq yaranır. İsfəndiyar da həmin ənənəvi aludəlikdən xali olmadı. İsfəndiyar 12 yaşından müğənnilərin qramafon vallarına qulaq asaraq, onları təqlid etməklə püxtələşib 17 yaşında Əbülhəsən xanın “Kürd-Şahnaz”ını yüksək səviyyədə ifa edib, ustadı İslam Abdullayevdən, “Xan” adını alıb bütün Qarabağda məşhurlaşıb.

Müxtəlif qastrollarda, konsertlərdə çıxış edən Xanın və onu müşaiət edən qardaşı Allahyarın şöhrəti o qədər pərvazlanıb ki, 1939-cu ildə Mir Cəfər Bağırovun əmri ilə 24 saat müddətində onların hər ikisi Bakıya köçürülür, evlə təmin edilib, filarmoniyaya solist təyin olunublar. Bundan sonra qardaşlar respublikanın bir çox kənd və şəhərlərini qarış-qarış gəzib, ziyalılar, kənd zəhmətkeşləri, qarşısında çıxış edib, onların rəğbətini qazanıblar. Bir sözlə SSRİ-nin bütün respublikalarında milli musiqimizi təbliğ edən Xanın ilahi səsi, sənəti dillərdə dastan oldu.

Bu gün Azərbaycan muğam sənətinin korifeyi olan Xan Şuşinskinin anadan olmasından düz 125 il keçir.

Bu münasibətlə respublikamızın hər bir təhsil, mədəniyyət ocaqlarında, muzeylərdə, kitabxanalarda foto, kitab sərgiləri, oxucularla söhbət, kitab müzakirəsi, musiqili ədəbi-bədii gecələrin təşkil olunması nəzərdə tutulur.

Beləki, Respublika Uşaq Kitabxanası olaraq, yubileylə bağlı kitabxanamızın oxu zalında kitab və foto sərgi təşkil olunur. Sərgilər müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Azərbaycan musiqisinin Xanı”, “Muğam mülkünün qüdrətli Xanı”, “Muğam ustadı”, “Ürəklərdə yaşayan sənətkar”, “Tanrının səs payı”, “Xan Şuşinskinin səs möcüzəsi” və s.

“Muğam mülkünün qüdrətli Xanı” adlı sərginin nümunəsini sizlər üçün təqdim edirik.

1. Başlıq: “Muğam mülkünün qüdrətli Xanı”
2. Kitabların nümayişi
3. Foto sərgi

4. Dövrü mətbuatda çap olunan qəzet və məqalələrin kartotekası
5. Görkəmli insanların Xan Şuşinski haqqında söylədikləri sitatlar
6. Muğamlarından parçalar

Şuşanın dağları başı dumanlı,
Şuşanın dağları başı dumanlı,
Qırmızı koftalı yaşıl tumanlı,
Dərdindən ölməyə çoxdu gümanım.

Ay qız, bu nə qaş göz, bu nə tel,
Ölərəm dərdindən, onu bil,
Danışmasan da balam, barı gül.

Şuşada axşamlar yanar ulduzlar,
Onlardan gözəldi gəlinlər, qızlar,
Oturub yol üstə yarını gözlər.

Ay qız, bu nə qaş göz, bu nə tel,
Ölərəm dərdindən, onu bil,
Danışmasan da balam, barı gül.

Şuşanın hər yandan gəlir sorağı,
Tərifə layiqdir İsa bulağı,
Dağları, bağları, qızlar oylağı.

Ay qız, bu nə qaş göz, bu nə tel,
Ölərəm dərdindən, onu bil,
Danışmasan da balam, barı gül.

**Foto albom**
















**Görkəmli şəxsiyyətlərin Xan Şuşinski haqqında söylədikləri**

1. "Mən muğamı ulu ustadlardan öyrənə-öyrənə, illərin çətin sınağından min bir əziyyətlə keçirərək, yad nəfəslərdən qoruyaraq gənc nəsillərə, bu günümüzə gətirib çıxardım. Sizdən də bir təvəqqem var, bu ərməğanı qoruyun, gələcək nəsillərə olduğu kimi çatdırın".

**Xan Şuşinski**
**Xalq artisti, xanəndə**

2. "Azərbaycan klassik xanəndəlik ənənələrinin layiqli davamçılarından biri olan Xan Şuşinski müstəsna fitri istedadı, geniş diapazonlu gur və məlahətli səsi, yüksək ifaçılıq mədəniyyəti sayəsində Azərbaycan muğam sənətini zənginləşdirmiş bir neçə muğama yeni xallar, guşə və şöbələr əlavə etmişdir. Onun ifasında səslənmiş muğam və xalq mahnıları əsl sənət inciləri kimi milli musiqi mədəniyyəti xəzinəmizə həmişəlik daxil olmuşdur. Öz 60 illik yaradıcılığı ilə Azərbaycan xanəndəlik sənəti tarixində özünəməxsus məktəb yaratmış Xan Şuşinski ölkəmizdə istedadlı ifaçılar nəslinin yetişdirilməsinə də böyük əmək sərf etmişdir."

**Heydər Əliyev**
**Ümummilli lider**

3. "Xanda Həzrəti Davud ləni var!
Allahın iki böyük neməti var: səs və gözəllik. Allah hər ikisini Xana verib, ona görə də, o, daha qabağa gedəcək.
Xan kimi yüksək zövqnən ifa edən ikinci bir xanəndə hələ ki, yoxdur".

**Cabbar Qaryağdıoğlu**
**Xalq artisti**00:00

4. "İsfəndiyar Aslan oğlu Cavanşirov hələ gənc yaşlarında öz parlaq sənətinə görə xalq tərəfindən Xan Şuşinski adına layiq görülmüşdür. Xan Şuşinskinin sənəti, sözsüz, Azərbaycan musiqisində böyük hadisədir. Bulaq təki saf və yumşaq səs, geniş diapazon, son dərəcə sərbəst ifa tərzi xanəndənin romantik görkəmi ilə uzlaşaraq həm tamaşaçılar, həm də dinləyicilərin ürəyində dərin iz buraxmışdır."

**Tofiq Quliyev**
**Xalq artisti**

5. “Qoca xanəndələr bulağın gözüdür, onlarda xəzinə vardır.”
“Xan Şuşinskini təkcə mahir xanəndə deyil, həm də Azərbaycan xalq musiqisinin incəliklərini dərindən bilən və onu qoruyan əsl sənətkardır”.

**Bülbül**
**Xalq artisti**

6. “Mən çox oxuyan görmüşəm. Amma Xan kimi gözəl səsli xanəndə görməmişəm.”

**Zülfü Adıgözəlov**
**Əməkdar artist, xanəndə**

7. “Göstər mənə elə bir xalq ki, mənim xalqım kimi muğamatıma bənzər bir musiqi yaratmış olsun. Buna şübhəsi olan Xan əmiyə qulaq assın.”

**Xudu Məmmədov**
**Elmlər doktoru, professor**

8. “Xan Şuşinskinin səsində olan tembr gözəlliyi heç kəsdə olmayıb. İkinci belə səs yoxdur. Yeganədir! Xan Şuşinski böyük xanəndəydi. O ağzını açıb zil pərdədə bircə nəfəs vuranda bəs eləyirdi. O, “Mirzə Hüseyn” segahının zilini oxuyanda ona qulaq asmaya bilməzdim. Yaxud “Əraq-Pəncgah” oxuyanda, zil səsin o tembrini göstərəndə onu dinləməkdən doymaq olmurdu. Əlbəttə, o, əvəzsiz sənətkar idi. Şəxsiyyət idi. Cəmiyyətdə öz yerini layiqli yer tapmış, öz yerini bilən adam idi.”

**Vasif Adıgözəlov**
**Xalq artisti**

9. “Xanın özü təmiz, sözü təmiz, səsi təmizdir. Xan Azərbaycan xalqının iftixarı, böyük Şuşa musiqi beşiyinin ləyaqətli övladıdır – sənətkarı, nəğməkarıdır. Xalqın səsi başı qarlı dağlarımızın sərt sıldırımlarından qopub çağlayan şəlalələr kimi çağlaya-çağlaya güclənir, hava dalğalarını öz sənət ecazkarlığı ilə doldurur, bir musiqi kainatı yaradır. Xanın xidmət etdiyi musiqi xalqımızın özü qədər mənən nəcibdir, zəngindir, əbədidir!”

**Süleyman Rəhimov**
**Xalq yazıçısı**

10. “Azərbaycan muğam sənətinin tarixində Xan Şuşinskinin xüsusi yeri var. “Gözəl” sözü hər cəhətdən ona yaraşır. Mən ona ilk dəfə 1938-ci ildə Bakı filarmoniyasının səhnəsində qulaq asmışam. Bütün tamaşaçılar kimi, mən də ilhamlı, gözəl təsirli bir sənətin tilsiminə düşmüşdüm. Onun füsunkar cazibəsi nə qədər şirin, nə qədər dadlı idi. Sonralar da dönə-dönə bu sənətkarın gözəl sənətinin minlərlə adama necə yüksək zövq və ləzzət verdiyinin şahidi olmuşam. Onun sənəti klassik ənənələrə əsaslanır. Xan bu ənənələrin ən gözəl və zəmanəyə uyğun olanlarını davam etdirib yaşatdığı üçün müasirlərin belə məhəbbətini qazanmışdır.”

**Mirzə İbrahimov**
**Xalq yazıçısı**

11. “Xanın səsi Bakıya gözəl Qarabağ bulaqlarının zümzüməsini, çiçəklərinin ətrini, şəlalələrinin cəh-cəhini gətirirdi. Bu səs uzun illər bizə məhəbbət, səadət, hicran, vüsal mahnılarını yetirmişdir. Xan öz səsi ilə minlərlə sevgililərin

şənliyində iştirak etmişdir. Xan oxuyarkən onun üzündə əzab əlaməti görməzsiniz. Bu, xanəndə üçün məziyyətdir.”
`
**Süleyman Rüstəm**
**Xalq şairi**

12. “Azərbaycan xalq havalarını və klassik muğamlarımızı məharətlə ifa edən məşhur xalq xanəndəsi Xan Şuşinski milyonların sevimlisidir. Xanın səsi sözün əsl mənasında dağ çeşməsidir, coşğun şəlalədir. Onun zəngulələri uzun illərdən bəridir ki, ürəkləri fəth etmişdir. Mən deyərdim ki, Xanın səsi nadir vergidir. Qarabağın gözəlliklərinin, ahəngi, bülbüllərinin incə cəh-cəhləri onun nəfəsinin ahəngində öz təzahürünü tapır.”

**Məmməd Rahim**
**Xalq şairi**

13.“Xan Şuşinskinin adı mənə 1929-1930-cu illərdən tanışdır. Onun görkəmli və şairanə simasını filarmoniya səhnəsində və başqa mədəniyyət ocaqlarında arabir görər və təkrarolunmaz, əvəzedilməz məlahətli səsini eşidər: “Ah, bizim nə gözəl oxuyanımız, müğənnimiz, sənətkarımız varmış” dəyərdim. Mən bir Biblioqrafiya 45 də böyük sənətkarımıza ona görə minnətdaram ki, o, çox sevdiyim şairlərin-Füzulinin, Vaqifin, S.Vurğunun ürəkləri vəcdə gətirən, fəth edən misilsiz şeirlərinin ən gözəl ifaçısı və yaradıcısıdır.”

**Osman Sarıvəlli**
**Xalq şairi**

**14.**“Xanın sənəti ilə şəxsiyyəti təcridolunmaz vəhdətdədir. Müğənni insani-məziyyətləri və ifaçılıq qüdrəti ilə ibrətamiz nümunədir.”

**Səid Rüstəmov**
**Xalq artisti**

**15.**“Atalar gözəl bir söz deyib! Yaxşı qız atanın başını ucaldar, yaxşı oğul Vətənin. Xan Şuşinski dedikdə insanın gözündə Şuşa ucalır. O şuşalı olduğunu sübut etmişdir. Onun qiymətini vermək çox çətindir. “Rast”ı bir saata yaxın oxuyardı, görəndə ki, camaat doymur, yaxud yeni qonaqlar var oxumağını kəsməzdi. “Üzzal” eləyərdi, keçərdi “Xaric Segah”a. Xan Şuşinskinin böyüklüyü, gözəlliyi də bundadır.”

**Habil Əliyev**
**Xalq artisti**

**16.**“Xan Azərbaycan xalqının çox sevdiyi xanəndələrdəndir. O, hələ gənclik illərində özünün gur və məlahətli səsi ilə fərqlənirdi. Muğamatı və xalq mahnılarını məharətlə ifa edən bir sənətkar kimi şöhrətlənmişdir. Məncə xanı bu qədər şöhrətləndirən təkcə məlahətli səsi deyil, bəlkə onun orijinal bir ifaçı olmasıdır. Xan muğamatı və xalq mahnılarını özünəməxsus bir ləhcə ilə oxuyur. Xan Şuşinski 46 Muğam qanunları çərçivəsinə sığmayan bu sənətkar heç kimə bənzəmədiyi üçün daha çox sevilir.”

**Həmid Araslı**
**Əməkdar elm xadimi, akademik**

**17.**Öz həyatını əvvəlcədən intixab etdiyi, ta uşaqlıq dövründən seçib bəyəndiyi sənətə bağlayan adamlar daima qaynar yaradıcılıq fəaliyyəti yaşayır, onların ürəkləri yaradıcılıq alovuyla isinir, onların qəlbi böyük ilham qüdrətilə çırpınır."

**Əfrasiyab Bədəlbəyli**
**Xalq artisti**

18.“Xalq üçün sənəti sənətkar yaşadır. Xalq üçün yaxşı sənətkar qızıl xəzinəsinə bənzəyir. Çünki xalqın əsrlərdən bəri ürək qanı ilə yaratdığı sənət incilərini ən yaxşı sənətkarlar yaşadırlar. Xan Şuşinski məhz belə sənətkarlardandır. Xanın səsində üstün cəhətlər çoxdur. Muğamlarımızın, xalq mahnılarımızın təravətini qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək hər sənətkara nəsib olmur. Bəlkə də çoxları bilmir ki, Xan özü bir neçə mahnının müəllifidir. Lakin hələ bir dəfə də olsun “müəllif” sözünü dilinə gətirməyib. “Şuşanın dağları”, “Al yanağında”, “Ay qə- Biblioqrafiya 47 şəng ceyran”, “Ay gözəl” mahnılarını elə gözəl çilalayır ki, qüsur tutmaq olmur.”

**Bəhram Mənsurov**
**Xalq artisti**

19.“Xanın səsinə bərabər gur və məlahətli səs özündən əvvəl olmayıb, ağlım kəsmir sonra da ola. Belə səsi Allah hər adama vermir.”

**Sara Qədimova**
**Xalq artisti**

20.“Xan orta, zil, bir sözlə bütün pərdələri şüşə kimi təmiz oxuyurdu. Onun səsinə bənzəyən səs olmayıb, bu gün də yoxdur. Məgər ona pərəstiş etməyən vardı?! Ona hamı pərəstiş edirdi. Sənətinin heyranları hədsiz çox idi. Muğamsevən ağsaqqallar Bakının kəndlərindən filarmoniyaya Xana qulaq asmağa gələr, oxumasından zövq alardılar. Xan əminin adı olan yerdə böyük qələbəlik olardı.”

**İslam Rzayev**
**Xalq artisti**

21. “Xan Şuşinski böyük Səməd Vurğun, hətta dil açan körpələrin əzbərlədiyi “Azərbaycan” şeirini ruhumuza, qanımıza elə hopdurub ki, “Havalansın Xanın səsi, Qarabağın şikəstəsi” misraları hər birimizin yaddaşında gözəl bir avazla səslənir”.

**Rəşad Məcid**
Yazıçı, jurnalist

22.“O səsi Tanrı kainatın, həyatın, insanların ruhuna sirayət etmək üçün yaratmışdır. O səs ölməzdir və əbədiyaşardır. Bu ölməz və əbədiyaşar səsin sehrinə düşən neçə-neçə insanlar var ki, onlar məhz o səsdən yaranan gözəl ədəbiyyat nümunələri ərsəyə gətiriblər.

**Səadət Təhmirazqızı**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**

23.“Yadımdadır, uşaq vaxtı Ağdamın Muğanlı kəndində olarkən radioda hər bazar günləri Xan Şuşinskiyə qulaq asardıq. Xan Şuşinski oxuyanda hamı susurdu, elə bil ağaclar da hiss edirdi ki, Xan əmi oxuyur. Xan əmiyə qulaq asanda uşaqlıq dövrüm, atalı-analı günlərim yadıma düşür. Bütün Azərbaycan Xan Şuşinskini özü kimi sevirdi.

Azad Şükürov

Əməkdar artist




Muğam sənətimizin əvəzsiz ustadı Xan Şuşinskinin anadan olmasının 125 illiyi ilə əlaqədar keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir. Kitab müzakirəsi oxu zalında təşkil olunur. Tədbiri təşkil edən kitabxanaçı kitabın müəllifi Mustafa Çəmənlini, şair, yazıçıları, sənət adamlarını tələbə və şagirdləri tədbirə dəvət edir. Müzakirəsinə yığışdığımız kitab yazıçı-publisist Mustafa Çəmənlinin məşhur xanəndə ilə bağlı qələmə aldığı “Muğam dünyasının Xanı” adlı kitabıdır. “Təhsil” nəşriyyatında çap olunmuş, geniş oxucu kütləsi və musiqi həvəskarları üçün nəzərdə tutulmuşdur. Bildiyiniz kimi, Azərbaycan muğamının sütunlarından olmuş Xan Şuşinski haqqında çox kitab, məqalələr yazılıb, filmlər çəkilib. Lakin, “Muğam dünyasının Xanı” kitabı isə həm müəllifin, həm də musiqisevərlərin həyatında xüsusi əhəmiyyət kəsb edir. Kitab dahi sənətkarın həyatı, zəngin yaradıcılığı, muğam sənətimizə töhfələri, 32 tanınmış sənətkarın xatirələri və söhbətləri əsasında qələmə alınmışdır. Kitabda Xan Şuşinskinin ömür yolu və sənəti haqqında dolğun və maraqlı məlumatlar yer alır. Publisistik xatirələr toplusu ilə dolu olan bu kitab tez bir zamanda oxucuların sevimli kitabına çevrilmiş, stolüstü kitabları olmuşdur. Görkəmli insanların sənətkar haqqında söylədikləri fikirlərdən yuxarıda keçirdiyimiz sərgidə istifadə etmişik.

Tədbirdə sənət adamları Xan Şuşinski haqqında xatirələrini bölüşmüş, kitab haqqında yüksək fikirdə olduqlarını bildirmişlər.

Tədbirin sonu yazıçı Mustafa Çəmənlinin çıxışı ilə yekunlaşır. Mustafa Çəmənli musiqişünas alim və tədqiqatçıların bundan sonra da Xan sənətinə müraciət edəcəklərini, Xan sənətinin əzəmətini, onun səsinin məlahət və qüdrətini heç bir qələm və dillə ifadə etməyin mümkün olmadığını bir daha etiraf edir.

Daha sonra tədbirin maraqlı və yaddaqalan keçməsi üçün musiqi məktəbinin tələbələri Xan əminin musiqilərini səsləndirir, onun oxuduğu muğamlara müraciət edirlər. Sonda qonaqlara kitab hədiyyə edilir, xatirə şəkli çəkilir.

Dahi sənətkar Xan Şuşinskinin anadan olmasının 125 illik yubileyi münasibətilə keçirilən tədbirlərdən biri də söhbətdir. Tədbir kitabxananın oxu zalında təşkil olunur.

Məktəb şagirdləri, musiqi məktəbinin şakirdləri, tələbə və oxucular arasında keçirilən "Tanrının səs payı" adlı söhbətə kitabxanaçı belə başlayır:

Azərbaycan muğam sənətinin korifeylərindən, Qarabağ xanəndəlik məktəbinin görkəmli nümayəndələrindən biri Xan Şuşinski. Əsl adı İsfəndiyar olan böyük sənətkar 1901-ci il avqustun 20-də Qarabağın məşhur tayfalarından olan Cavanşir sülaləsinə mənsub Aslan bəyin ailəsində dünyaya göz açıb.

Balaca İsfəndiyarın ustadı İslam Abdullayev öz dövründə "Segah İslam" kimi tanınırdı. O, məclislərin birində İsfəndiyarın səsini bəyənib və onu özünə şagird götürüb.

İsfəndiyara "Xan" adının verilməsinin maraqlı tarixçəsi var. "Segah İslam" tələbəsi İsfəndiyarla birgə Ağdamın Novruzlu kəndində bir məclisdə imiş. Ev sahibi İslam Abdullayevin arzusu ilə qrammofonu qurur və Təbrizli Əbülhəsən xanın ifasında "Kürd Şahnazı"nı dinləyirlər. Hamının heyranlıqla qulaq asdığı bu ifadan sonra "Segah İslam" üzünü İsfəndiyara tutub deyir: "Bəlkə sən də bizim üçün "Kürd Şahnazı" oxuyasan?".

İsfəndiyar 12-13 yaşından başlayaraq, Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin, Əbülhəsən xanın vallarını oxudub saatlarla qulaq asar, onların ifasının ən incə məqamlarını təqlid etməyə çalışardı. Amma gözlənilmədən, özü də Əbülhəsən xanın ifasından sonra oxumağa tərəddüd edir. Amma İslam Abdullayevin sözünü də yerə sala bilmir. "Kürd Şahnazı"nı zilə çəkən İsfəndiyar öz ifası ilə məclis əhlini heyrətləndirir, yerbəyerdən səslər eşidilir: "əsl xan elə bu imiş ki!". İslam Abdullayev isə şagirdinə ustad xeyir-duasını verərək deyir: "Bu gündən sən oldun Xan".

1920-ci illərdə Xan Şuşinski Bakıya gələrək öz ifaçılıq fəaliyyətini genişləndirir. Xanəndənin repertuarında "Mahur-Hindi", "Bayatı-Qacar", "Qatar" muğamları, "Qarabağ şikəstəsi", "Arazbarı", "Heyratı" zərbi muğamları ilə yanaşı, xalq mahnıları və təsniflər də yer alır. Xan xalq mahnılarını xüsusi bir şövqlə oxuyur, onlara yeni çalarlar əlavə edir.

Xan Şuşinskinin öz mahnıları da var. Çox zaman xalq mahnıları kimi təqdim olunan "Qəmərim", "Şuşanın dağları", "Ay gözəl", "Məndən gen gəzmə", "Al yanağında", "Dağlarda çiçək", "Gözəl yarım", "Ölürəm, a Ceyran bala" mahnılarının müəllifi Xan Şuşinskidir. "Şuşanın dağları" mahnısının musiqisi ilə yanaşı sözləri də Xana məxsusdur. Mahnılarının, demək olar, hamısı bədahətən yaranıb.

Simfonik orkestrin müşayiəti ilə ilk dəfə simfonik muğamlarda solo hissəni Xan oxuyub. Musiqi tariximizdə ilk duet də böyük sənətkarın adı ilə bağlıdır. Şövkət Ələkbərova ilə Xan Şuşinskinin ifasında lentə alınan "Yaylıq" adlı bu duet indi də maraqla dinlənilir.

Xan Şuşinski Üzeyir Hacıbəylidən başqa heç bir bəstəkarın yaradıcılığına müraciət etməyib. Deyilənə görə, Üzeyir Hacıbəyli də mahnılarını Xan Şuşinskinin ifasında dinləməkdən xüsusi zövq alırmış, xüsusən də "Qaragöz" mahnısını.

Görkəmli xanəndə 1960-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində "Muğam studiyası" yaradaraq gənc xanəndələrə muğamın sirlərini öyrədib. O, həmçinin Azərbaycan Dövlət Musiqi Məktəbində dərs deyib, muğam ifaçılarının yeni nəslinin yetişməsində əvəzsiz xidmətlər göstərib.

İsfəndiyar Cavanşirov gənclikdə ona verilən “Xan” adının məsuliyyətini ömrünün sonunadək daşıyıb, Azərbaycan musiqisinin həqiqi Xanı olub.

Azərbaycan musiqi tarixinin əvəzolunmaz korifeyi Xan Şuşinskinin səsinin yadigarı kimi günümüzə onun cəmi 240 dəqiqəlik lent yazısı gəlib çatıb.

Xan Şuşinski 1979-cu ildə vəfat edib və Bakı şəhərindəki II Fəxri Xiyabanda dəfn edilib.

Bəli, əziz oxucular XX əsrin görkəmli xanəndəsi, Azərbaycanın xalq artisti Xan Şuşinski yaradıcılığının oxucular arasında geniş təbliği üçün keçirilən tədbirlərdən biri də xatirə gecədir. Xatirə gecəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbir iki hissədən ibrət olur. Səhnə gül-çiçək dəstələri ilə bəzədilir, xanəndənin portreti səhnənin divarından asılır.



I Aparıcı: İnsan dünyaya göz açandan musiqi ilə dostlaşır. Musiqi onu bütün həyatı boyu müşayiət edir. Ana laylasını eşidəndə oxumaq istəyi baş qaldırır. Körpə uşaq anasının laylası altında rahatlıq tapır və yuxuya gedir. Bəzən də olur ki, anasının laylasını özünün körpə zümzüməsi müşayiət edir. Hərdən körpə böyüyəndən sonra da oxumaq həvəsini itirmir. Elə bir adam tapmaq olmaz ki, oxumağa meyilli olmasın…Səsi olan da, olmayan da oxuya bilməsə də, zümzümə etməyi xoşlayır. Və bu oxumaq həvəsi onu hətta müğənniliyə də aparır.

1901-ci avqust ayının 20-də anadan olmuş, əsl “adı unudulmuş”, səsin və musiqinin xanı kimi tanınmış İsfəndiyar Aslan oğlu Cavanşirov Şuşada, musiqi və muğam beşiyinin bünövrəsini qoymuş Cavanşirlər sülaləsinin nəsil daşıyıcılarından idi. Sovet hakimiyyəti digər bəylər və xanlar kimi, onun babası Aslanın da Şuşadakı mülkünü müsadirə edib, özünü isə doğma yurdundan didərgin salıb. Bundan sonra Aslan bəy Bərdədə məskunlaşmalı olub.

Heç kim inkar edə bilməz ki, Qarabağda dünyaya göz açanların əksəriyyətinin səsi və nəfəsi muğama, segaha necə yatımlı olub. Balaca İsfəndiyara da bu vergi ulu Tanrıdan verilmişdi. Onun səsinin cilalanmasında, ümumiyyətlə, bu sənətə gəlişində Segah İslamın xüsusi əməyini ustad xatirələrində bildirib.

Ucaboylu, pəhləvan cüssəli bu kişinin səsi, avazı bir aləm, möcüzəydi. O, çox qüdrətli oxuyardı. Görkəmli xanəndə 1960-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində “Muğam studiyası” yaradaraq gənc xanəndələrə muğamın sirlərini öyrədib. O, həmçinin Azərbaycan Dövlət Musiqi Məktəbində dərs deyib, muğam ifaçılarının yeni nəslinin yetişməsində əvəzsiz xidmətlər göstərib. 1973-1979-cu illərdə Xan Şuşinski A.Zeynallı adına orta ixtisas musiqi məktəbində pedaqoji fəaliyyətlə məşğul olub. İsfəndiyar Cavanşirov gənclikdə ona verilən “Xan” adının məsuliyyətini ömrünün sonunadək daşıyıb, Azərbaycan musiqisinin həqiqi Xanı olub. Xan çıxışlarının birində üzünü gənc xanəndələrə tutaraq vəsiyyətini edib: "Mən muğamı ulu ustadlardan öyrənə-öyrənə, illərin çətin sınağından min bir əziyyətlə keçirərək, yad nəfəslərdən qoruyaraq gənc nəsillərə, bu günümüzə gətirib çıxardım. Sizdən də bir təvəqqem var, bu ərməğanı qoruyun, gələcək nəsillərə olduğu kimi

çatdırın". Oxucular səhnəyə daxil olur. Xalq şairi Məmməd Rahimin Xan əmi haqqında şeirini səsləndirirlər.
Gözəl Qarabağa onda get ki, sən
Yaşıl yamaclarda yüz canan olsun.
İsa bulağında, Cıdır düzündə
Səsi dağ çeşməsi dostum Xan olsun.

Çal-çağır başlasın, süfrə açılsın,
Əlvan çəmənlərdə canhacan olsun.
Qulaq as Qarabağ şikəstəsinə,
Xəyalının yeri asiman olsun.

İlk bahar çağında səni cəzb edən
Mənim bu yazdığım gülüstan olsun.
Xəbərin yoxdursa cənnət diyardan,
Sənə yol göstərən bu dastan olsun.
Onun qəhrəmanı iftixarımız
Xan qızı, şairə Natəvan olsun.

**II Aparıcı:** Qarabağa çox xanlar gəldi-getdi...Yalnız bircə Xan qaldı. O da bizim Xanımızdır. Bu sənəti yüksəklərə qaldıran da Xan oldu. Əgər Qaryağdı oğlu Cabbar vokal məktəbinin bünövrəsini qoydusa, bu əzəmətli binanın kərpiclərini çiyinlərində daşıyan yenə də Xan oldu. Əgər Seyid Şuşinski muğamatın camını Füzuli inciləri ilə doldurdusa, bu camı başına çəkən Xan oldu. Segah İslam ürəkləri titrədən segahlar ilə səhər bülbüllərini yuxudan oyatdısa, bu bülbülləri öz sehirli, incə və cəh-cəhli zəngulələri ilə susduran yenə Xan oldu...

Yüksək ifaçılıq qabiliyyətinə malik sənətkar klassik Şərq və Azərbaycan muğamlarını, təsnif və el nəğmələrini tam mənası ilə sərbəst, xüsusi zövq və böyük ustalıqla ifa edirdi. Bir daha qeyd etmək istərdik ki, Xandakı geniş diapazonlu, gur səs və güclü nəfəs heç kəsdə olmamışdır. Qədim xalq manılarını, təsnifləri, xüsusilə muğamları tam şəkildə, özü də ustalıqla ifa etməkdə onunla yarışmaq müşkül idi. Oxucular səhnəyə daxil olur. Xalq artisti Şövkət Məmmədovanın "Segah, Şikəstə ilə döyünən ürək" şeirini səsləndirirlər.
Dedilər Xan köçdü bu gün dünyadan,
Başı qar yataqlı məğrur dağ köçdü.
Mən onda görürdüm eli-obanı,
Gözümdə nəğməli Qarabağ köçdü!
Susdu xalqı ilə öyünən ürək,
Çahargah üstündə döyünən ürək,
Muğamla dillənib, hey dinən ürək,
Bülbülü kirimiş güllü bağ köçdü.
Qıydı qoca dünya Xan bülbülünə,

Şöhrət bülbülünə, şan bülbülünə.
Yan vətən oğluna, yan bülbülünə,
Nəğməli yurdumdan təmtəraq köçdü.
Dəfn etdik torpağa böyük sənəti,
Cahana sığmayan şanı-şöhrəti,
Bu kədər, ayrılıq əydi Şövkəti,
Dərdli sinəsinə çarpaz dağ köçdü.

I Aparıcı: Bütün həqiqi sənətkarlar kimi, o da səhnəyə çıxarkən hədsiz həyacan keçirərdi...Tamaşaçılar və sənətqarşısında böyük məsuliyyət daşıyardı. İstər bəmdə, istərsə də zildə tam sərbəstliklə oxuyardı. Böyük sənətkarımız Üzeyir Hacıbəyov öz çıxışlarında dəfələrlə Xanın səsinə və gözəl sənətinə yüksək qiymət vermişdir. Bəstəkar onun "Şur" oxumağından və "Alma almaya bənzər" mahnısından xüsusi həzz alardı. Cabbar Qaryağdı oğlu isə Xanı "gələcəyin ən gözəl oxuyanı" adlandırmışdır.

XX əsrin görkəmli xanəndəsi, Azərbaycanın xalq artisti Xan Şuşinski...Xalqın tükənməz sənət çeşməsindən su içən bu qüsrətli sənətkar "şərq musiqisinin peyğəmbəri" Cabbar Qaryağdı oğlunun, vokal sənətimizin nadir incisi Seyid Şuşinskinin və məşhur "Segah" ustası İslamın istedadlı şagirdi və ləyaqətli varisi olmuşdur.

Bu gün biz görkəmli sənətkarın keçdiyi yaradıcılıq yolundan, muğam sənətimizin təbliği və inkişafı sahəsində gördüyü işlərdən, qazandığı uğurlardan söz açdıq.

Xan Şuşinski adını muğam ifaçılığı tarixinə qızıl hərflərlə yazdıran bir sənətkar idi. Xan sənətinin əzəməti, onun səsinin məlahət və qüdrəti heç bir qələm və dillə ifadə edilməyən bir sənətdir.

Belə əfsanəvi sənət karifeyi haqqında yazı yazmaq özü bir məsuliyyətdir.

Bu gün radio və televiziyaların səs xəzinəsində saxlanılan "Qatar", "Şahnaz", "Rast", "Mirzə Hüseyn segahı", "Qarabağ şikəstəsi", "Heyratı", "Mənsuriyyə" muğamları eləcə də xalq mahnıları ustad xanəndənin bizlərə ərmağan qoyub getdiyi bir sənətdir. Oxucular səhnəyə daxil olur. Şair, dramaturq Məmməd Rahimin Xan əmiyə həsr etdiyi şeiri səsləndirirlər.

Ey könül! Min namə yaz bir gülüzarın eşqinə,
Can evindən seyrə çıx bir xoş gülzarın eşqinə!
Hansı rəssamın əlilə canlanır dünya evi?
Hər çəmən min qönçə açmış növbaharın eşqinə!
Gəl, gəl, ey sevdalı bülbül, gəl gəzək gülşənləri,
Sən gülün eşqilə dilən, mən də yarın eşqinə!
Məcnun öz şurilə çox da aləmə səs salmasın,
Hansı namərd can əsirgər bir nigarın eşqinə?
Gün keçir, dövran keçir... Öz hökmünü vermiş zaman,
Ney tutulsun, badə gəlsin ruzigarın eşqinə!
İnsan oğlu can verər pərvanə tək atəşlərə,
Düz sözün, düz ilqarın, düz etibarın eşqinə!
Vurğunun öz aləmi, öz qəlbi, öz ilhamı var,

Mehri-ülfətdən yaranmış bir diyarın eşqinə!

Qərinələr, əsrlər ötəcək, ancaq Xan əminin sənətinə olan sevgi heç vaxt azalmayacaq. Ona görə ki, bu sevginin mayasında, ruhunda Azərbaycanın heç vaxt təravətini itirməyən əbədi və əzəli muğamları dayanır. Onun yaratdığı ölməz sənət əsərləri Azərbaycan musiqisinin ən dəyərli inciləri kimi əsrlər boyu yaşayacaq, öz müəllifini hər zaman yaşadacaq, onu unudulmağa qoymayacaq. Oxucular səhnəyə daxil olur. Əməkdar incəsənət xadimi, görkəmli şair Əli Tudənin "Xanın səsi" şeirini söyləyirlər.

Bir yolla axışan səslər bir deyil,
Dünyada meh, külək tufan səsi var.
Naşı uşağa da çoxdan sirr deyil,
Dünyada bulaq, çay, ümman səsi var.

Tacir çanaq-çanaq dürr quylayanda,
Xanəndə özünü səsiylə öyüb.
Dövran neçə-neçə səs paylayanda,
Xanın qapısını zil səslə döyüb.

Xan lovğalanmayıb bəs aləmində?
Yox! Yox! O, nə məğrur, nə lovğa olub.
Oxuya-oxuya səs aləmində,
Ümman dönəcək bir dalğa olub.

Xanın kürəyini tufan döyəndə,
Ürəyi ilhamla isidilibdir.
Özü Şuşamızda nəğmə deyəndə,
Səsi Bakımızda eşidilibdir.

O, sonra Bakıda nadir səsiylə,
Gah muğam oxuyub, gah da ki, şərqi.
Bahar şimşəyindən qadir səsiylə,
Ölüm yuxusundan oyadıb şərqi.

Gah olan sənətlə vədələşibdir,
Onu qorumaqçün kiprikləşibdir.
Haçan danışıbdır, sadələşibdir,
Haçan oxuyubdur, müdrikləşibdir.

**Ədəbiyyat sıyahısı:**

1. **Çəmənli M. Muğam dünyasının Xanı.-Bakı:Gənclik, 2001, 272 s.**

**https://az.baku-art.com/az/qarabagin-meshhur-simalar-unudulmaz-mu-am-ustas-xan-shu-inski**
**https://www.azerbaijan-news.az/az/posts/detail/mugamimizin-xani-1786569978/398847**
**https://senet.az/bloq/sesi-ile-qelbleri-feth-eden-boyuk-senetkar-xan-susinski-6401**